Aqil ABBAS

"QARABAĞ"ın İMARƏTSİZ UŞAQLARINI AĞLATMAYIN

(əvvəli 1-ci səhifədə)

Bir romanı, ya bir şeiri təkrar-təkrar oxuyub zövq ala bilərsən və hətta hər dəfə təzə gələ bilər sənə. Dostoyevskinin bütün əsərlərini dəfələrlə oxumuşam. İlahi, Mirzə Cəlilin "Usta Zeynal"ı kimi bir hekayə varmı? Və ya Çexovun hekayələrini. Hamımız "Altıncı palata"nın pasiyentləriyik.

Amma bir futbolun nəinki təkrarına , hətta hesabını bildikdə baxa bilməzsən. Oyun bir gün əvvəl olubsa, heç nəticəsi də məlum deyil, amma yenə baxmağa həvəsin olmur.

Futbol! Elə bir möcüzəli tamaşadır ki, onu bircə dəfə göstərirlər.

Bir türk yazarı var: Nihat Gənc. Dəlidolu, çılğın bir adam. Bir az da bizim qarabağlılar kimi, ağızdan harfadı. Yazıları da bəzən 18+ yox, 30+du. Hansı televiziya kanalında da bir neçə dəfə dalbadal canlı yayıma çıxırsa (üç saat çəkir canlı yayım) sonra ya həmin televiziya kanalını bağlayırlar, ya da vergilər həmin kanalı "tasa" oturdur.

Nihat bəyin futbolla bağlı çox maraqlı bir yazısı var, bizdə futbolla bağlı ən gözəl əsəri Seyfəddin Dağlı yazıb: "Afsayt Absatəli".

Nihat bəyin yazısını ləzzətlə bir neçə dəfə oxumuşam. Hər dəfə oxuyanda həm gülmüşəm, həm də kövrəlmişəm. O gün yenə oxudum. Yenə həm güldüm, həm də kövrəldim. Elə bil "Trabzonspor"dan, onun fanatlarından deyil, "Qarabağ"dan və bizim fanatlardan yazıb.

Onun və "Trabzonspor" fanatlarının (daha dəqiq desək, fanat cocuqlarının) yaşadıqlarını mən və "Qarabağ"ın fanatları da çox yaşayıb. İndi "Trabzonspor"un fanatlarının nə yaşadıqlarını bilmirəm, amma mən də, "Qarabağ"ın fanatları da hələ də o hissləri yaşayırıq, bir az fərqli.

Uşaqlar 16-cı sektorda otururdular: "Qarabağ bizimdi, bizim olacaq!", "Qara-bağ!", "Qarabağ"! Söyüşün biri bir qəpik. Maşallah, dilimizdə də söyüşlərin sayı elə dilimizdəki sözlərin sayı qədərdi və bəlkə də çoxdur. Məsələn, dünyanın heç bir dilində belə bir söyüş eşidə bilməzsən ki, "sənin domovoy kniqanı ". Və 16-cı sektordakı uşaqlar qarabağlı səslərinin gur yerinə salıb "Heyratı" üstündə necə qışqırıb-bağırırdılarsa, bütün stadionun səsini batırırdılar. 10-17 yaş arası təxminən 200-250 uşaq idi.

Onların nə ev-eşikləri vardı, nə də normal geyim-gecimləri, nə öz məktəbləri, nə də üstündə dava saldıqları qızlar. Villalardan zirzəmilərə, sökülüb-dağılan yataqxanaların küncünə düşən bu uşaqların çoxu ata sevgisi, ata nəvazişi, ata silləsi dadmamışdı. Onları sevəcək, nəvaziş göstərəcək, sillələyəcək ataları, böyük qardaşları, əmiləri, dayıları bu milləti xilas eləmək, bu milləti yaşatmaq üçün və bu cocuqların stadionda çığırıb-bağırmaları üçün öz yaşamlarını qurban vemişdilər. Düşmən təkcə onların şəhərlərini işğal eləməmişdi, arzularını da, sevinclərini də, xoşbəxt uşaqlıqlarını da işğal etmişdi.

Onların bu dünyada heç nələri yox idi, bircə "Qarabağ"ları vardı. Vəssalam! Futbolda gülürdülər də, şənlənirdilər də, atılıb-düşürdülər də, amma gözlərinin içi heç vaxt gülmürdü.

Bu sevinci, bu gülüşü, bu şənliyi, atılıb-düşməyi onlara bircə "Qarabağ" yaşadırdı.

Nihatın trabzonlu uşaqları kimi futbola getməyə pulları da yox idi, başqa rayonlara oyuna getmək üçün avtobus biletləri də. Təkcə bayraqları vardı və bir də bu uşaqları futbola pulsuz buraxan yaxşı kişilər .

Soxulub doluşurdular avtobuslara, məsələn, Masallıyacan ayaq üstə gedirdilər. Zorla avtobusdan düşürən sürücülər də olurdu. Amma elə sürücülər də vardı ki:

- Doluşun,ə , avaralar - deyib gülümsəyər və şərt də qoyardı;- amma yolda oxuyacaqsız.

- "Qa-ra-bağ"!

Bağıra-bağıra Avtovağzaldan üzü stadiona. Rayonlardakı qaçqın uşaqlar da, qaçqın olmayan uşaqlar da onlara qoşulurdu. Elə bir yürüş alınırdı ki, heç bir müxalif partiya bugünədək elə bir yürüş təşkil edə bilməyib. Yolun kənarındakı camaat da onlara əl eləyərdi.

Masallıda bu uşaqlar "Qarabağ" çığıra-çığıra "Viləş"in stadionuna tərəf gedəndə bir yaşlı qadının, bir nənənin onlara baxıb necə:

- Can balalar! - deyib ağladığını öz gözlərimlə görmüşəm.

Kim bilir, bəlkə o nənənin də oğlu bu uşaqların ataları, əmiləri, qardaşları kimi Qarabağda bu uşaqların xətrinə şəhid olmuşdu?! Və nənə bu uşaqların timsalında öz nəvələrini görürdü.

Ağdamda uşaqlar məhlələrə bölünürdülər : İmarət uşaqları, İnternat uşaqları, Bazar uşaqları, Acməhlə, Toxməhlə uşaqları və sair və ilaxır.

Biz də Ağcabədinin Bayat kəndindən Ağdama köçəndə aldığımız ev Acməhləyə düşmüşdü, yəni bəndəniz tox olsa da, Acməhlə uşağıydı.

Ən davakarlar, çılğınlar da İmarət və Acməhlilər idi.

Nihat bəyin trabzonlu uşaqları həmişə futbola gedərkən yeməkxanaları, dükanları yağmalayırdılar, dava-dalaş salırdılar, bizim uşaqlarda o yox idi. Amma oyundan sonra elə bir dava düşürdü ki, hətta onları ayırmaq istəyən böyüklər də görürdülər ayıra bilmirdilər, özləri dalaşırdılar.

Yeməkxanaları, dükanları yağmalamasalar da, İmarətdə futboldan sonra Məhərrəm kişinin bağına qarğa-quzğun kimi daraşardılar.

Stadionun həm bağbanı, həm də qaravulçusu Məhərrəm kişi də əlində ağac bu cin-şəyətinin hansına çatsın, hansı ki öz nəvələri də onların içindədi.

16-cı sektordakı uşaqlar bağırır, çığırır, söyür, xorla qarşı komanda haqqında yazıya gəlməyəcək söyüşü oxuyurlar:

- ... , ... ü!

Polislər sektora girib birini qapazlayır, birini sillələyir. Durub keçirəm həmin sektora. Uşaqları polislərin əlindən alıram.

- İşiniz yoxdu! Stadion təkcə futbol meydanı deyil ey, həm də söyüş meydanıdı. Siz özünüz söymürsüz?

Sonra da uşaqlara təpinirəm:

- Söyüş söyməyin. Yoxsa sizdən küsərəm, polislərin əvəzinə mən döyərəm sizi.

- Aqil əmi, görmürsən, analarını öpdüyüm bulka yeyənlər bizim Nazimi qəsdən necə vurdular? Sudya əvrəş də ştraf vermədi.

Sabah dövlət imtahanı olacaq, bu gün isə "Neftçi" oynayır. Stadionda öz yerimə keçirəm. Oturmaq istəyəndə bir də gördüm ki, Dövlət İmtahan Komissiyasının sədri, professor Mirəli Seyidov əyləşib. Mənim biletim də onun yanındadı. Salamlaşıb sakitcə otururam. Büzüşmüşəm, professorun qorxusundan cınqırımı da çıxarmıram. Professor da məzlum-məzlum oturub, o da sakitdi. Oyun gedir, "Neftçi" də uduzur.

Birdən professor əlini çiynimə qoyub dedi:

- Ay bala, mən səndən utanıb söyüb bağırmıram. Barı, sən söy, mənim də ürəyim boşalsın.

Vay dədəm, vay. Necə bağırıramsa, artıq professor da mənə qoşulub.

Səhər imtahandı. Bəxtiyar Vahabzadə oturub, Ağamusa Axundov oturub, Firudin Hüseynov kimi əjdaha oturub, Allah sən saxla, Həsən Şirəliyev də ordadı. Yaxınlaşıram bilet çəkməyə.

Mirəli Seyidov deyir:

- Gəlin buna beş yazaq. Heç bilirsiniz bu necə gözəl söyüşlər bilir?

Heç bilet də çəkmirəm, mənə beş yazırlar və komissiya üzvlərinin hamısı da gülür.

Mirəli Seyidov Oljas Süleymenov "Az i Ya"nı yazmamışdan əvvəl həmin mövzunu yazan bir kişiydi. Şumerdən üzü bəri bütün tariximizi gözəl bilirdi, ən ciddi tədqiqatçı idi. Qədim ermənı dilini də ermənilərdən yaxşı bilirdi. Hələ ermənilərlə bacı-qardaş olan vaxt onların öz əsərlərinə istinad edib ermənıləri yıxıb-sürüyürdü. Və vaxtilə əvvəllər "Dinamo" adlanan "Ararat"ın oyunçusu olmuşdu. Oyun vaxtı qılçası qırıldığından futbolu atmışdı və ölənədək axsayırdı. Özü də başdan-ayağa Süleyman Rəhimov kimi nur idi.

Bir dəfə oyuna 4-5 dəqiqə gecikmişdim. Yerimə keçəndə gördüm ki, uşaqlar mısmırıqlarını sallayıb oturublar, sakitlikdi. Elə bil futbola yox, üzünü görmədikləri Azdramada hansısa mənasız bir tamaşaya baxırlar. Polislər də düzülüb.

Qəfildən məni görən uşaqlar xorla bağırırlar:

- Aqil əmi gəldi!

- Aqil əmi gəldi!

Bağırtı, çığırtı, söyüş... Stadiona bomba düşdü. Deməli, Aqil əmi gəlibsə polislər onlara bir söz deməyəcək.

Onda ki "Qarabağ" uduzurdu . Elə bil o uşaqların evləri indicə bombalanıb. Atalarının, qardaşlarının, ya əmilərinin ölüm xəbəri onlara indicə çatıb. Allah-Allah, necə ağlayırdılar. Və bəzən mən də özümü saxlaya bilməyib uşaqları qucaqlayıb onlara qoşulurdum.

Oyun başlayanda çox vaxt stadiona futbolçularla girirdim. Uşaqların oturduğu səmti onlara göstərib deyirdim:

- Sizə qurban olum, o uşaqları ağlamağa qoymayın!

Mən o uşaqların qoruyucu mələyi idim.

... Çox zülmlə, uzun sürən mübarizədən, AFFA rəhbərliyinin, xüsusilə də PFL-in prezidenti Ramin Musayevin qətiyyətindən sonra "Qarabağ"ın ev oyunlarının Quzanlıda keçirilməsinə nail olduq.

Fanatlar, "Qarabağ"sevərlər komandanın avtobusunu bayraqlarla hələ Yevlaxda qarşılayıb Quzanlıya qədər müşayiət edirdilər. Rayonun həmin dövrdəki icra başçısı Həsən Sarıyevlə mən Dördyolda gözləyirdik. Təkcə biz yox, yüzlərlə ağdamlı. Avtobus görünür. Ön şüşəyə belə bir şüar yazılıb: "Bu gün Quzanlıya, sabah Ağdama!". Avtobus Quzanlıya daxil olur.

Uşaqlar "Qarabağ" çığıra-çığıra düz stadiona qədər avtobusun yanıyla və arxasınca qaçırlar. Stadionun önündə avtobus dayanır. Kimsə dırmaşıb şüarı öpür. Əvvəlcə Ramin müəllim, ardınca futbolçular tökülür. Ürrey ilə uşaqlı-böyüklü hamı futbolçulara hücum edir. Biri qucaqlayır, biri boynuna sarılır, Vüqar Nadirovu sevincdən didim-didim edirlər. Şəhərdəki fanat uşaqların çoxu da kimi gecə qatarla, kimi avtobusla tökülüb gəliblər.

Allahverdi Bağırovun neçə metrlik afişası da açılıb.

Adil Nadirov birtəhər futbolçuları camaatın əlindən alır, polis işçilərinə deyir ki, kömək eləyin də.

Polislər:

-Nadirov, utanmasaq biz özümüz o futbolçuları çiyinlərimizə alıb stadiona apararıq.

Stadionda iynə atsan yerə düşməz. Adam özünü Ağdamda, İmarətdə hiss edir. Yüzlərlə adam ayaqüstə, çoxu da elə İmarətdəki kimi yerdə oturub.

Oyundan sonra Həsən müəllim çox böyük bir ziyafət verir.

Bakıdan gələn uşaqlarla maraqlanıram, acdılar, susuzdular? Öyrənirəm ki, kimilərini qohum-əqrəbaları, dost-tanışları götürüb aparıb, qalanları da Olimpiya kompleksində.

Həsən müəllim deyir:

- Narahat olma, tapşırmışam.Kompleksin yeməkxanası onlar gedənədək uşaqları pulsuz yedirdib-içirdəcək.

Çox təəssüf ki, sonralar komanda Ağdam camaatının da, o uşaqların da sevincini götürüb yenidən Suraxanıya qayıtdı.

Yaşlılar içində ən böyük fanat Xalıqoğlu Kamil idi (yeri behişt olsun). "Qarabağ"ın bir oyununu da buraxmazdı. Durub Quzanlıdan gələrdi Bakıya, Sumqayıta, Lənkərana, Şəmkirə, Masallıya. Özü də həmişə "Allahverdi Bağırovun uşaqları"nın arasında oturardı.

Deyirdim, Kamil, gəl bizimlə otur.

Qayıdırdı ki:

- Yox ey, Məllim, mən həm "Qarabağ"a balet eləməyə gəlmişəm, həm də bu uşaqlara.

... Qarabağda savaş başladı. Vaxtilə Məhərrəm kişinin qovladığı uşaqlar 35-40 yaşlarında. Məhərrəm kişi indi onların uşaqlarını qovalayır. "Qarabağ"ın oyunçusu, həm də kapitanı Eldar Bağırov təkcə Məhərrəm kişinin vaxtilə qovladığı o uşaqları yox, həm də rayonun say-seçmə oğlanlarını, eləcə də başqa bölgələrdən Ağdama köməyə gəlmiş qeyrətli gəncləri başına yığıb Xalq hərəkatı yaradır. Özünü mübarizənin önünə atır. 91-ci ildə Bakıda Parlamentdən çıxıb bacısıgilə gedərkən 4-cü mikrorayonda sui-qəsd nəticəsində öldürüldü. Hansı ki səhər Parlamentdə erməni ziyalılarının Azərbaycan hökumətinə ünvanlanmış 40-dan çox ziyalının və içində Sosialist Qəhrəmanları olan vəzifəlilərin xoşməramlı və Azərbaycana dəstəklərini bildirən müraciətlərini oxuyacaqdı. Bu yaxınlarda Ayaz Mütəllibov belə bir müraciətin olduğunu etiraf elədi. Çox qəribədir ki, Eldar Bağırovun öldürülməsindən sonra həmin o müraciəti imzalayanları da bir-bir ermənilər özləri öldürdü.

Və Eldar Bağırovun ölümü hələ də müəmmalıdı.

... "Qarabağ"ın, elə Ağdamın bel sütunu, kapitanı, sonra məşqçisi Allahverdi Bağırov hərəkatı qardaşının əvəzinə öz üzərinə götürdü. Komandir elə təkcə erməni əsirliyində olan 1003 xocalılını xilas etmişdi. Əsgəranın Naxçıvanik kəndini düşməndən təmizləyəndən sonra elə Naxçıvanikdə də şəhid düşdü.

... "Qarabağ"ın ən dəli-dolu oyunçusu, Adil Nadirovun qardaşı, məşhur futbolçu Vüqar Nadirovun atası General Ərşad Seyidli, Sarıtəpə cavanlarını başına yığıb batalyon yaratdı və düşmənlə döyüşdə də şəhid oldu.

... Fred Asif. Vaxtilə Məhərrəm kişinin qovladığı İmarət uşaqlarını, Acməhlə və Toxməhlə uşaqlarını İmarətə yığıb "Haqq cəbhəsi" adlanan batalyona komandirlik edir. Mənim "Dolu" romanımda obrazlarını yaratdığım Drakon və Pələng də Fred Asifin əsgərləri idi. Fred Asif ağır xəstə olmasına baxmayaraq, batalyonu ən ağır döyüşlərə aparır. Xocalı faciəsi gecəsi Fredin batalyonu özünü güllə qabağına atıb yaralanmış, məşələrdə qarın-şaxtanın içində qalmış nə qədər xocalılını ölümün əlindən qoparır. Yoxsa daha böyük bir faciə yaşanardı.

... Əlifoğlu Nazim. Düzdür, elə də güclü oyunçu deyildi, amma müharibə başlayanda Daşkənddə Daxili İşlər Nazirliyində yüksək postunu buraxıb Ağdama dönmüşdü və tağım komandiri idi. Tağımı ilə birlikdə Qərvənd uğrunda gedən döyüşlərdə bir addım geri çəkilmədi və şəhid oldular.

Adını yazmadığım neçə-neçə "Qarabağ" futbolçusu Vətən yolunda ölümün gözünə dik baxdı.

"Beşiktaş"ın bütün futbolçuları Çanaqqalada şəhid olduqları kimi, "Qarabağ" oyunçularının əksəriyyəti də bu Vətən uğrunda döyüşdə şəhid oldu.

"Qarabağ" da "Beşiktaş" kimi şəhid komandadır.

Məhərrəm kişinin ağacının qabağına qatıb qovaladığı fanatların da bəlkə 70-80 faizi döyüşlərdə canlarından keçdilər.

16-cı sektorda oturanlar, avtobusdan sallanıb Sumqayıta oyuna baxmağa gələnlər, çığırıb-bağırıb hay-küylə "Qarabağ" çağıranlar, Masallıda o nənəni ağladanların əksəriyyəti döyüşlərdə həlak olan o fanatların övladları, nəvələri idi.

Son zamanlar oyun vaxtı çox həyəcanlanıram deyin, stadiona az-az gedirəm. Çünki stadiona gedəndə bu yaşımda dönürəm əlli il bundan əvvəlki Acməhlənin uşaqlarına. Hətta bəzən evdə də oyun vaxtı çox həyəcanlandığıma görə...

- Ə, topu evinizə aparassan, at də!

- Bunun verdiyi padaçaya bax ey!

- Bu Foqts dədələrinin hayıfını bizdən alır!

- Sənin sudya atana lənət! Ə, nemes, görmürsən gül kimi qoldu?!

Böyük oğlum:

- Bu iyirmi iki avara axırda kişini dəli edəcək.

Türkiyə millisi, eləcə də "Qarabağ" oynayanda bütün oyunboyu əllərimi göyə tuturam:

-Tanrım, sən özün kömək ol, biz udaq!

Evdə də deyirlər Tanrı gəlib onların əvəzinə qol vuracaq, bəsdi də.

- Tanrı gəlməyəcək, amma o qədər boş-bekar mələyi var ki, göndərər də.

Bizimkilər qol vuranda:

- Gördüz, eşitdi?!

Uduzanda:

- Bəs, nə oldu?

- Görünür, o biri komandanın dua edənləri daha çoxdu.

Xanımım:

- Bu futbol axırda səni infarkt edəcək. - deyir və televizorun kanalını dəyişir.

"Qarabağ" uduzanda məni bu məğlubiyyət o qədər də yandırmır. Futboldu, qələbə də var, məğlubiyyət də.

"Qarabağ" uduzanda məni o uşaqların göz yaşları yandırır. Özü də lap cızdağımı çıxarır.

- Sizə qurban olum Qurban və onun köhlənləri, mən ölüm, o uşaqları ağlatmayın!

***P.S.** Söhrab Tahirin Sibir haqqında silsilə şeirlərinin içində biri belədi: "Bir rus şairi kimi yaza bilsəydim". Çox ağrılı şeirdi. Bəxtiyar Vahabzadə demiş: "Gedin bunun çortuna, görün nə görərsiz".*

Kaş mən də qeydlərimi Nihat Gənc kimi yaza bilsəydim! Ağdamda İmarətdə "Qarabağ"ın oyununa baxandan sonra, dəxli yoxdu udub, ya uduzub! Nihat Gəncin də hekayəsini bugünki sayımızda oxuya bilərsiniz.

Nihat Gənc

Ən böyük fanat

1976-cı il. "Trabzonspor" İzmirdə "Göztəpə"ylə heç-heçə oynayarsa kubok ilk dəfə Anadoluya gələcək. Həyəcandan bir yerdə dayana bilmirik. Məhəllədə dostlara "klubun prezidentindən maşın istəyək" dedim. "Trabzonspor"un prezidenti un fabrikinin sahibi Şamil Əkinçidir. Gülbahar məhəlləsindən Məsud ağa, Faroz məhəlləsindənsə Üveyiz və mən taksiylə fabrikə getdik. "Azarkeş olaraq avtobus istəyirik, futbola baxmağa gedəcəyik" dedik. Həlim xasiyyətli, çox şirin bir adam sevinclə heç nə soruşmadı və telefonun dəstəyini qaldırıb "Qənbərəoğlu" şirkətinə zəng vurdu:

- İki avtobus verin, uşaqlar İzmirə gedəcək.

Bizsə çəkinə-çəkinə "İstanbulda "Qalatasaray"la da oyunumuz var" deyə qışqırışdıq.

- Ordan İstanbula gedəcəklər, sonra da qayıdacaqlar.

İki avtobusu Gülbahar məhəlləsində parkın önündə saxladıq. Faroz, Arafil boyu Gülbahar kimi böyük məhəllələrdən on beş adam, Baxçacıq, Hacıqasım, Yenicümə kimi digər məhəllələrdən beş adamlıq bir qrup yığıb xəbər göndərdik. Yer davası, döyüş, hərəkət... Axır ki avtobuslara mindik. Avtobus Giresunun Aksu tərəfində ilk fasiləni edəndə pulumuzun olmadığının fərqinə varıb yerimizdə donub qaldıq. Məhəllənin yaşlı lotularından biri (adını demirəm, yoxsa camaatın yanında etibarını itirər) dedi:

- İt uşaqları, pulunuz yox idisə, avtobusa niyə mindiniz?

Arafildən Ağa Mustafanı xatırlayıram. Gama Bülənt uzun boylu, kələ kimi bir oğlan, bir də Poxludərədən Sultanı, özünə görə bir oğlan, amma bəla, dava-dalaşsız bir günü olmayan, bir də Farozdan məşhur Ərəbi. Əlimizdə nağaralar, bayraqlar. Yeməyimizi yeyib bitirəndən sonra hamımız kassanın önünə gəlirik. "Trabzon, Trabzon" deyə qışqırırıq. Uşaqların üzlərində şəhvət, azğın bir zalımlıq anadangəlmə bir ifadədir. Pis dişləri, qımışan dodaqları, ələsalan gülüşləri, söyüşləri dözülməzdir. Qarsonlar, aşpazlar, müştərilər başımıza yığılır, Farozlu uşaqlar "Espiyə dərəsinə daş körpü qurulacaq" oyun havasına ortada oynayır, biz əl çırpırıq, tempi tuturuq. Bağırmaqdan gicgahlarımız zonquldayır.

Üveyiz müdirə yaxınlaşıb deyir:

- Dayday, indi sən bil ki, bu it uşaqlarının heç birində bir qəpik də yoxdur!

Samsun sərhəddinə çatmamış heç kimdə səs qalmadı, bir də avtobusun içində əsəbə toxunan davalarla bir-birimizi cırırıq, tez-tez acırıq, kiçik dükanların önündə dayanırıq, yüz adamla içəri soxuluruq, pomidor, siqaret, xiyar daşıyırıq. İçimizdə bir adam belə acsa, avtobusu saxlatdırıb tarlalara girişirik. Şəhərdən uzaqlaşdıqca alov kimi yanır, fişəng kimi partlayır, şeytanlaşırıq. Və sonra avtobusun içində qənimətləri bölüşərkən yenə üzümüzü dəlib keçən alovlu söyüşlərlə bir-birimizə hücum çəkirik. Ankaraya kimi restoranlar hesab verməməyimizə görə bizə heç kim heç nə demədi, "çempionluq hədiyyəsi" olaraq bizə qoşulub coşqumuzu alqışladılar. Bu tolerant, bu qürur duyğularımızı ən şiddətli nöqtəyə kimi çıxartdı. Trabzon-Ankara bölgəsində ad-sanımız vardı. Avtobus Afyona doğru hərəkətə keçəndə başqa bir ölkəyə girdiyimizi başa düşdük. Yuxu bitmişdi. Bağırmağımız, şüarlarımız, nağaramız bir qəpik də etmirdi, qarsonlar əllərinə bıçaq alıb qapıya düzülürdülər:

- Kimsə pul verməsə restorandan çıxa bilməz!

Bu bizim üçün buğaya qırmızı göstərmək, davanın açılışı demək idi. Farozlu uşaqlardan biri Ərəbin yanına gedib "Ərəb, bu qarson var ha, sənin ananı, arvadını söydü"deyəndə Ərəb dedi ki, hansı dəyyusdur o, göstər mənə. Restoranın ortasında qarsonlar yerə yıxılır, masalar hərəsi bir yana aşır, davaya girməyənlər sırf şənlik olsun deyə mətbəxdəki boşqabları tavana atıb davaya akrobatik rəng qatırlar. Restoran sahibi yalvar-yaxarla araya girir, pul-para almayıb bizi qapıdan çölə tullayır.

Afyonda qarsonlara həqiqi bir meydan davası yaşadıq, çünki elə-belə yanından keçdiyimiz bir restoranın önündə üst-üstə yığılmış yüzə yaxın pivə çəlləyi görmüşdük. Biz içəridə dava salacağıq, bir bölük çöldən çəlləkləri avtobusa yükləyəcəkdi. Afyonlular əllərində dəyənək on-iyirmi adamla hücuma keçdilər. Bizim uşaqların əllərində heç bir kəsici alət yoxdur, amma ondan da üstün yağlı, bir batman balla yeyilməyəcək söyüşləri və hər an bir zibil qaynadacaq inkişaf etdirdikləri dünya görüşləri var. Bir də dava vaxtı hipnoz olmuş adam kimi qəfildən çılğınlaşırlar. Döyməyə adam qalmayanda boş bir masanı saatlarla yumruqlayır, təpikləyirlər. Yəni onların heç bir şansı yoxdur İçimizdə tək çarəsiz "Qənbərəoğlu"nun sürücüləridir. Araya girirlər, yalvarırlar, "rəzil olduq, firmamız məhv oldu" deyə bağırsalar da eşidən yoxdur. Sürücülər öz aralarında plan qurdular, hamımız birlikdə yemək üçün avtobusdan düşəndə dağ başında avtobusları qaçıracaqlar. Tədbirli davranaraq avtobusun içində bir-iki adam saxladıq. Və sürücülər bizə qulaq asmağa başladılar, avtobusdan biri işəməyim gəlir, saxla deyir, sürücü saxlamır, uşaqlar çox keçməmiş avtobus koridorundakı bütün zibil qablarını sidiklə doldurur. Yəni sürücülər bir növ əsir qalmışdı əlimizdə. Bir başqa ölkənin torpaqlarında idik, hamının beynində bir qabıq çatlamışdı, tez-tez boğuşan, dalaşan başdanxarab qələbəlik girdiyi dükanları soyub-talayıb avtobusa daşıyır, yenə məhəllənin dayısı avtobusun mikrofonunda nitqinə başlayır:

- Qancığın doğduqları, oğrular, şərəfsizsiniz! Trabzonun adını batırdınız, qancıq uşaqları, bir də oğurluq edən olsa avtobusdan çölə tullayacam onu. Gətirin malları!

Malları gətirirlər, tək-tək bölüşdürülür. Və var gücümüzlə bağırmağa başlayırıq:

Biz öndə "Bordo!", arxa tərəfdəkilərsə "Mavi!"...

"Bordo-mavi", "bordo-mavi" qışqıra-qışqıra İzmirə daxil olduq. Basmaxanada avtobusdan düşdük. Əvvəlcə meydanda bir dövrə, sonra tək-tək pivəxanaların önündə. Əsgərliyini İzmirdə xidmət çəkən on-on beş Trabzonlu mehmetçik də sevincdən gözləri yaşara-yaşara bizə qoşulur. Faytonlara doluşduq, şəhəri gəzdik, pul-zad da vermədik.

O qədər içmişdik ki, özümüzü buludların üstündə sanıb bir-birimizə sarılıb uçurduq. Yuxu kimidir bu səhnə, izdiham şüarları bağıra-bağıra irəliləyir, önümüzdən ağzına qədər çiyələklə dolu olan əl arabası izdihama daxil olur, arxa tərəfdən çıxanda isə bir-iki çiyələkdən başqa o arabada heçnə qalmır. Çiyələk satan hara düşdüyünə təəccüblənir. Xiyar soyub satanlar və başqaları da çiyələk satan kimi bizdən nəsibini alır. İzmir Basmaxanada birdənə də olsun satıcı dəzgahı qalmadı.

Basmaxanada böyük və köhnə bir otelə gəldik. Farozlu uşaqlar yaşlı otel sahibinə özlərini "atam, bax, bu Trabzonsporlu Turqay, bu Cəmil, sabah oyunları var" deyə təqdim edir. Otelin içində sabaha qədər nağaralar çalındı, pivələr içildi, çarpayılar hamıya çatmadı, kimisi yerdə xalının, kilimin üstündə, kimisi də kreslolarda yatdılar. Sübh çağı saat 6-da zəng çalındı, səssizcə hər kəs oyandırıldı, heç bir səbəb yox ikən, - bu otelci ibnə Fənərliyə bənzəyirdi - deyə pərdələr söküldü, çarpayıların ağları yırtıldı, bir qəpik də verilməndən oteldən qaçıldı. Axşam komandanın yarısı qrupdan ayrılıb qırx-əlli adam fahişəxanaya gedir, pulsuz olduqları ortaya çıxanda qadınlar hamılıqla hücuma keçir, oteldən Qonaq meydanına doğru çatanda şalvarsız, ayaqqabısız İzmir küçələrində bizi axtaran üşüyən uşaqları gördük. Oyundan sonra fahişəxanadakılardan qisas alınacaq, plan qururuq.

Təcili İzmirdəki Trabzonlu satıcıları tapdıq. Hamılıqla mağazanın önünə gedirik, nağara çalır, şüar deyir, "bordo-mavi" deyərək bağırır, tozu dumana qatırıq. Trabzonlu yerlimiz dükanın önünə çıxıb bağıra-bağıra, göz yaşları içində yallı oynamağa başlayır. Yer üzündə bu qədər xoşbəxt adam sanki otuz ildir qürbətdə Orta Asiyadan gələn soydaşlarını bu an, bugün üçün gözləyirmiş. Silahı çıxarıb havaya atəş açır. Həyatın ən böyük zəfəri kimi satıcı qonşular da ona sarılır, təbrik edir, o da hər birimizə sarılır, ağlayır.

Və həqiqəti söyləyirik:

- Oyuna getməyə pulumuz yoxdur!

Özünü unudan adam şabaş səpələyirmiş kimi pulları başımıza tökür. Bir başqa yerlimizin dükanını axtarırıq, Trzabzonlu bir sələmçi Anadoludan qopub gələn bu qələbəliyi qarşılayır, iki saniyədə səmimiləşir, - a kişi, heç kimi buraxmaram, gəlinbacınız sizi gözləyir - deyir, eləmə, dayı, 200 nəfərik, evə sığmarıq deyəndə - kim gəlməsə anasını ... - deyib bizi susdurur. Onu susdurmaqsa mümkün deyi, özündən çıxıb - girin bu dükana, nə istəyirsinizsə götürün - deyir, dükanı alt-üst edirik. Dükanın talan olunduğunu görüb sevincindən ağlayır. Dükandan çıxanların əllərində lifçik, alt paltarı, bu dayı isə dükandan çıxanların alınlarından öpür və bütün küçəyə üzünü tutub qışqırır:

- Qoyduq, qoyduq, uşaqlar, İstanbulun ... qoyduq, qoyduq, qoyduq, uşaqlar, anasını ... İstanbulun...

Hamı ağlayır. Adamın ürəyi gedib, heç kim nə su verir, nə də adamı ayıltmaq üçün yanına əyilir. Ətrafını nağaralarla dövrəyə alır, bayraqları üstünə sərib ağlayaraq bağırırıq:

- Bordo, mavi, bordo, mavi... Trabzon, Trabzon.

Ürəyi gedən yerlimizin gözləri iri açılıb, qollarına güc gəlib qalxır, yoldan keçən maşınları hücum edir, onu tutub saxlamaq mümkün deyil, maşınlara qışqırır:

- Milyonluq eşşəklər, milyonluq eşşəklər!

Bu bir şüar idi və İstanbul klublarındakı futbolçulara deyilirdi.

(ardı 10-cu səhifədə)